


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 184 (21.845)

*29 sentyabr 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Türkiyə Respublikasının milli müdafiə naziri Nurəddin Caniklinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Nurəddin Caniklinin yeni vəzifəyə təyin olunduqdan sonra qısa müddət ərzində Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edərək bildirib ki, ölkələrimiz qardaş ölkələrdir və ona görə də Azərbaycan və Türkiyə nazirləri ilk səfərlərini qardaş ölkələrə edirlər. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə çox yaxşı əməkdaşlığın və iş birliyinin mövcud olduğunu vurğulayan Prezident İlham Əliyev hərbi-texniki sahədə birgə fəaliyyətin geniş olduğunu deyib.

Milli müdafiə naziri Nurəddin Canikli öz növbəsində Azərbaycan ilə Türkiyənin qardaş ölkələr olduğunu və əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq bildirib ki, məqsədimiz bu əməkdaşlıq əlaqələrini daha da genişləndirmək və möhkəmləndirməkdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Mərkəzçi Demokrat İnternasionalının vitse-prezidenti Mario Davidi və qurumun Avrasiya, Asiya-Sakit okean ölkələri üzrə baş koordinatoru Sezar Rossellonu qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illik yubileyi qeyd olunub



***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılmasının 10 illiyi münasibətilə tədbir keçirilib. Əvvəlcə komitənin kollektivi ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində eksponatlarla tanış olub.***

Tədbirdə komitə sədri Ramilə Seyidova çıxış edərək əməkdaşları yubiley münasibətilə təbrik edib və bildirib ki, ölkəmizdə ailə, qadın və uşaq siyasətinin təməli ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub, bu sahədə zəngin qanunvericilik bazası yaradılıb.

Muxtar respublikada da ailə, qadın və uşaq problemləri dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb, 2007-ci il 25 oktyabr tarixli Fərmanla komitənin Əsasnaməsi təsdiq edilib. Ötən müddət ərzində Əsasnaməyə müvafiq dəyişikliklər edilib, muxtar respublikada ailə, qadın və uşaq siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini, inkişafını təmin etmək əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirilib. Komitənin fəaliyyəti üçün lazımi şərait yaradılıb.

Qeyd olunub ki, fəaliyyəti dövründə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi muxtar respublikada ailə institutunun qorunması, ailə dəyərlərinin möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görür. Komitə tərəfindən ailələrin möhkəmləndirilməsində əsas faktor kimi ailədaxili münasibətlər, ailə modelinin formalaşmasında gənclərin rolu, sosial şəbəkələr və informasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə edilməməsinin ailə münasibətlərinə mənfi təsiri, ailələrdə sağlam həyat tərzinin aşılanması, reproduktiv sağlamlıq, erkən nikahların fəsadları ilə bağlı muxtar respublikanın rayon və kənd mərkəzlərində gənclər və qadınlar arasında 311 konfrans və maarifləndirici tədbir keçirilib.

Diqqətə çatdırılıb ki, aztəminatlı ailələrin sosial problemlərinin həlli üçün aidiyyəti orqanlarla birlikdə 248 aztəminatlı ailəyə baş çəkilib, ailə institutunun möhkəmlənməsi, qorunması və gələcək nəsillərə ötürülməsi məqsədilə uzunömürlü ailələrlə gənclərin görüşü təşkil edilib. 72 uzunömürlü nümunəvi ailənin yubileyi (gümüş, qızıl, brilyant, zümrüd, dəmir toyları) qeyd olunub.

Komitənin fəaliyyətində qadınların qarşılaşa biləcəyi problemlərin aradan qaldırılmasının, onların ictimai-mədəni həyatdakı rolunun artırılmasının mühüm yer tutduğunu vurğulayan Ramilə Seyidova deyib ki, müvafiq dövlət proqramlarına uyğun olaraq sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin üzvü olan 4897 qadınla əlaqə saxlanılaraq söhbətlər aparılıb, onlardan 184-nün müvafiq peşə kurslarına cəlb olunması üçün aid təşkilatlara məlumatları göndərilib.

Milli və xalq tətbiqi sənəti növləri üzrə qadınlar arasında özünüməşğulluğun inkişaf etdirilməsi, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması və istedadlı qadınların üzə çıxarılması məqsədilə muxtar respublikanın rayonlarında və Naxçıvan şəhərində istedadlı qadınların əl işlərindən ibarət 22 sərgi-satış təşkil olunub. Bu sərgi-satışlarda və komitənin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən əl işləri mağazasında yüzlərlə istedadlı qadının 27 min 285 manat dəyərində 3099 əl işi satılaraq dəyəri iş sahiblərinə ödənilib.

Bildirilib ki, komitənin fəaliyyətində uşaqların sağlamlıqlarının qorunması, təhsil alması, xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası, uşaq hüquqları və uşaq problemləri ilə bağlı geniş maarifləndirmə işinin aparılması və bir sıra digər tədbirlərin həyata keçirilməsi prioritet məsələdir. Belə ki, milli dəyərlər və uşaqlar, yeniyetməlik dövrünün çətinlikləri, uşaqlara hüquqlarının aşılanması, erkən nikahların doğurduğu fəsadlarla bağlı ümumtəhsil məktəblərində 110 maarifləndirici seminar keçirilib.

Komitə tərəfindən xüsusi qayğıya ehtiyacı olan 364 uşağa məktəbli paltarı və dərs ləvazimatları, eləcə də qış geyimləri verilib, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 126 uşağın yaşadığı ünvanda monitorinqlər təşkil edilib, eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 91 uşağın və övladlığa götürülmüş 57 uşağın ümumi uçotu aparılıb.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"na uyğun olaraq uşaq müəssisələrində 33, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq 103 monitorinq təşkil edilib. Komitədə uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı yaradılıb, burada on mindən artıq uşaq haqqında müvafiq məlumatlar yerləşdirilib.

Qeyd olunub ki, müvafiq dövlət proqramlarına və verilən tapşırıqlara uyğun olaraq komitə tərəfindən sağlamlıq imkanları məhdud 6635 uşağın valideynləri ilə əlaqə saxlanılıb, bu uşaqlardan 735 nəfəri məktəbəqədər, məktəbdənkənar və ümumtəhsil müəssisələrinə, reabilitasiya mərkəzlərinə cəlb olunub, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün 9 ekskursiya, hemofiliyalı və talassemiyalı uşaqlar üçün 7 dəfə qanvermə aksiyası keçirilib.

Bildirilib ki, komitə əməkdaşlarının fəaliyyətinə də dövlətimiz tərəfindən yüksək qiymət verilib, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Dövlət qulluğunda fərqlənməyə görə" və "Tərəqqi" medalları ilə təltif ediliblər.

Ramilə Seyidova göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

10 illik fəaliyyəti geniş təhlil edən komitə sədri vurğulayıb ki, qurumun əməkdaşları göstərilən qayğıdan və yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da öz vəzifə borclarını uğurla yerinə yetirəcək və cəmiyyətin özəyi olan ailələrin sağlam, milli ruhda formalaşmasına, qadınların ictimai fəaliyyətinin güclənməsinə, uşaqların sağlam, vətənpərvər, layiqli vətəndaş kimi yetişməsinə çalışacaq, öz işini günün tələbləri səviyyəsində quracaqdır.

Sonda fəaliyyətində fərqlənən əməkdaşlara fəxri fərman və pul mükafatları verilib.

✍ **Gülcamal TAHİROVA**

***Sentyabrın 28-də Naxçıvan şəhərindəki 12 nömrəli tam orta məktəbdə "Nağdsız ödənişlər" mövzusunda maarifləndirici tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Vergilər, Təhsil nazirliklərinin və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri məktəbin direktoru Əli Novruzov açıb.***

## "Nağdsız ödənişlər" mövzusunda tədbir keçirilib



Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşı Azər Səfərov və "Kapital Bank" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Muxtar Respublika Baş İdarəsinin əməkdaşı Hidayət Məmmədov "Nağdsız ödənişlər və texnoloji yeniliklər" mövzusunda tədbir iştirakçılarına məlumat veriblər.

Muxtar respublikanın Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov "Ödəniş kartları nağdsız əməliyyatlar üçün əsas vasitələrdəndir" mövzusunda çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 2 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a əsasən Vergilər Nazirliyi və bank orqanları qarşısında bir sıra vəzifələr qoyulub. Bu vəzifələr sırasında maliyyə əməliyyatlarının nağdsız hesablaşmalar vasitəsilə aparılması, belə ödənişlərin həcminin əhəmiyyətli şəkildə artırılması, POS-terminallardan səmərəli istifadə edilməsi və sair vardır. Keçirilən tədbirin də əsas məqsədi ondan ibarətdir ki, nağdsız əməliyyatların əhəmiyyəti və ödəniş kartlarının üstünlükləri haqqında hər kəs məlumatlı olsun.

Qeyd edilib ki, nağdsız ödənişlərin bir çox üstünlükləri var. Çünki kart vasitəsilə edilən bütün əməliyyatların dəqiq uçotu aparılır. Yəni kart sahibi ondan istifadəyə dair məlumatları istənilən anda əldə edə bilər. Təcrübə göstərir ki, nağd alış-verişlə müqayisədə kredit kartı ilə alınan malları geri qaytarmaq daha asandır. Həmin şəxsin kredit kartını aldığı bank, zərurət yarandıqda, hüquqların qorunması üçün hər zaman öz müştərisinin yanında olur.

Vurğulanıb ki, bu gün iqtisadiyyatın müasirləşməsində, şəffaf idarəetmə sisteminin qurulmasında nağdsız ödəniş sisteminin genişləndirilməsinin rolu danılmazdır. Dünya təcrübəsi də sübut edir ki, ölkənin maliyyə və sosial-iqtisadi fəaliyyətində hesabatlığın və şəffaflığın təmin edilməsi sahəsində mühüm tədbirlərdən biri də nağdsız ödəniş sisteminə keçiddir.

Ödəniş kartlarının əhəmiyyətindən bəhs edən şöbə rəisi diqqətə çatdırıb ki, ödəniş kartları malların, iş və xidmətlərin dəyərinin ödənilməsi, öz hesabından digər şəxsin hesabına pul vəsaitinin köçürülməsi, habelə nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə olunan bir ödəmə aləti hesab edilir. Vurğulanıb ki, müasir dövrdə nağdsız hesablaşmalar, əslində, birbaşa olaraq vətəndaşın yaşam tərzinin asanlaşdırılmasına yönəlib. Bu gün muxtar respublikamızda əhalinin bu cür hesablaşmalardan istifadəsi üçün lazımi şərait yaradılıb. Belə ki, 2017-ci il 1 sentyabr tarixinə muxtar respublika ərazisində 573 ədədi Naxçıvan şəhərində, 681 ədədi rayon və kənd mərkəzlərində olmaqla, cəmi 1254 ədəd POS-terminal elektron qaydada qeydiyyatdan keçirilərək quraşdırılıb. Cari ilin yanvar ayından sentyabrın 1-dək aparılan nağdsız əməliyyatların həcmi 20 milyon 798 min 864 manat təşkil edib. Hazırda muxtar respublika ərazisində 104 bankomat var, ödəniş kartlarının sayı isə 256 min 577-dir.

Zahid Qənbərov onu da qeyd edib ki, 2014-cü ildən başlayaraq Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə "Nağdsız ödəyin, hədiyyə qazanın" adlı həvəsləndirici tədbir keçirilir. Bu həvəsləndirici tədbirlər çərçivəsində ötən dövr ərzində nağdsız hesablaşmalardan (o cümlədən bankomat, internet və POS-terminallar vasitəsilə) istifadə edərək ödəniş aparan vətəndaşların ödədikləri məbləğə müvafiq olaraq 1288 vətəndaşa 85 min manat dəyərində müxtəlif hədiyyələr təqdim edilib.

Tədbirə Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin direktoru Əli Novruzov yekun vurub.

Tədbirdə mövzuya uyğun olaraq slaydlar nümayiş etdirilib, iştirakçıların sualları cavablandırılıb.

✍ **Səbuhi HƏSƏNOV**

*Böyükdüz Kəngərli rayonunun 10 kənd yaşayış məntəqəsindən biridir. Bu kənd rayon mərkəzindən 23 kilometr aralıda – Arazboyu düzənlikdə yerləşir. Arazboyu düzənliyin Böyükdüzə aid hissəsində düzənlik şimaldan cənuba doğru 19-20 kilometrə qədər uzanır, orta enliyi isə təqribən 10 kilometrdir. Bu kəndin adı ilə bağlı fərqli fikirlər mövcuddur. Bəziləri kəndin böyük düzənlik əraziyə görə belə adlandırıldığını söyləsələr də, tədqiqatçılar "Böyükdüz" toponiminin bu sözün müstəqim mənasında (böyük, iri) deyil, "Kitabi-Dədə Qorqud" eposunda dəfələrlə xatırlanan Böyükdüz tayfası və onun başçısı Bükdüz Əmənin adı ilə bağlı olduğunu ehtimal edirlər. Mərhum coğrafiyaşünas-alim Səfərəli Babayev "Naxçıvanda Kitabi-Dədə Qorqud toponimləri" əsərində "Bükdüz" sözünün sonralar xalq dilində dəyişilərək müasir şəklə düşdüyünü yazır.*

*Müasirləşən yurd yerlərimiz*

## Araz sahilində bir kənd var

Böyükdüz kəndinin yerləşdiyi ərazi tarixi bir ərazidir. Ərazidəki Köhnə Böyükdüz yaşayış yeri Son Tunc və İlk Dəmir dövrlərinə aid edilir. 1973-cü ildə tədqiq edilən bu yaşayış yeri hazırda Araz Su Anbarının altında qalıb. Tədqiqatlar zamanı buradakı uzunsov təpədən boz və qırmızı rəngli gil qab qırıqları, çaxmaqdaşı, şüşə və dəmir məmulatları tapılıb. Həmin tapıntılar hazırda Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Burada yerləşən digər arxeoloji abidə isə I Böyükdüz nekropoludur. Bu nekropolun sahəsi 320 kvadratmetr təşkil edir. Antik dövrə aid edilən bu arxeoloji abidədən 50-dən artıq qəbir, əsasən, daş qutu qəbirlər aşkar edilib. Ərazidən tapılmış gil qablar, ox ucluğu, dəmir qılınc, xəncər, bıçaq və sair qədim dəfnetmə adətləri haqqında geniş məlumat verir. Buradan tapılmış insan skeletinin qalıqları isə 1972-ci ildə sərhəd-gözətçi məntəqəsinin zabitləri tərəfindən toplanmış və Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir. Digər qəbirlər isə daşqın zamanı yuyulub üzə çıxmışdır.

II Böyükdüz nekropolu isə keçmiş sərhəd-gözətçi məntəqəsinin yerləşdiyi təpədə Antik dövrə aid arxeoloji abidədir. Bu abidə 1991-ci ildə qeydə alınmışdır. Buradakı qəbiristanlıq Arazın lap yaxınlığında yerləşdiyindən qəbirlərin çoxu yuyulub dağılmış, yalnız bir qismi salamat qalmışdır. Həmin ərazidən müxtəlif məişət əşyaları aşkar olunmuşdur.

Deyilənlərə görə, Böyükdüz kəndi 1929-cu ildə Şahtaxtı kəndindən köçüb gəlmiş yeddi ailə tərəfindən salınıb. Köhnə kənd Araz çayı yaxınlığında Qarğalıq stansiyası, Bakı-Naxçıvan dəmir yolunun 420-ci kilometrliyində yerləşib və Naxçıvan MSSR-in Naxçıvan rayonunun tərkibində olub. Araz çayı üzərində Su Elektrik Stansiyası tikildikdən sonra suyun altında qalacağından Böyükdüz kəndi 1969-cu ildə indi mövcud olduğu əraziyə köçürülüb. 1978-ci ildən Naxçıvan rayonu Babək rayonu adlandırılmağa başlanıb və Böyükdüz kəndi Babək rayonunun inzibati ərazisinə verilib. 1 mart 2003-cü ildə qəbul edilmiş "Naxçıvan Muxtar Respublikası şəhər və rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında" Qanuna görə Böyük Düz kəndi "Böyükdüz" adlandırılıb. 19 mart 2004-cü ildə isə yeni yaradılan Kəngərli rayonunun tərkibinə daxil edilib.

Kəngərli rayonu yaradıldıqdan sonra bu rayonun abadlaşdırılan, quruculuq tədbirləri həyata keçirilən ilk yaşayış məntəqələrindən biri də Böyükdüz kəndi olub. Belə ki, 2006-cı ildə kənd tam orta məktəbində əsaslı yenidənqurma işləri aparılıb, birmərtəbəli binaya daha bir mərtəbə əlavə olunub. Bundan başqa, burada yeni kənd mərkəzi, həkim ambulatoriyasının binaları istifadəyə verilib. Kənd mərkəzinin binasında yerli dövlət qurumları üçün lazımi şərait yaradılıb.



Kənddə olduğumuz zaman Böyükdüz bələdiyyəsinin sədri İbrahim Quliyevlə görüşüb söhbət etdik. O bildirdi ki, Böyükdüz kəndi özünün hərtərəfli inkişafına müstəqilliyimizin bərpasından sonrakı dövrdə qədəm qoyub. O zamanadək kəndin problemləri çox olub. Xüsusilə kənd ətrafındakı şoranlaşmış torpaqlar əkin sahələrinin artırılmasına imkan verməyib. Suvarma suyuna olan tələbat ödənilmədiyindən kənd sakinlərinin əkib-becərməyə o qədər də marağı olmayıb. Ancaq son illərdə muxtar respublikamızda kənd təsərrüfatının inkişafı üçün mühüm tədbirlərin həyata keçirilməsi, torpaqların münbitləşdirilməsi istiqamətində aparılan aqrotexniki tədbirlər zəhmətkeş kənd sakinlərini yenidən torpağa bağlayıb. Söhbət əsnasında öyrəndik ki, hazırda kəndin 1756 sakini var. Kəndin ümumi əkin sahələri isə 6696 hektardır. Bu torpaqların 941 hektarı pay torpaqları, 5662 hektarı isə bələdiyyə mülkiyyətindədir. Son illərdə Kəngərli rayonunda aparılan irriqasiya tədbirləri Böyükdüz kəndinin əkin sahələrinin suvarılmasına da öz töhfəsini verib. Məsələn, ötən il rayonun Böyükdüz və Xok kəndlərini əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilib. 117 hektar torpaq sahəsini əhatə edən qapalı suvarma şəbəkəsi, eyni zamanda ərazidə şoranlaşmanın qarşısının alınmasına imkan verəcək. Su mənbəyi kimi Araz çayından qidalanan nasos stansiyası götürülüb. Ərazidə 2,2 kilometr uzunluğunda ana xətt, 9 min 930 metr uzunluğunda isə paylayıcı su xətləri çəkilib. Su xətlərinin üzərində 25 siyirtmə, 103 hidrant və 20 suboşaldıcı qoyulub. Yeraltı suvarma şəbəkəsinin qurulmasının nəticəsidir ki, Böyükdüz və Xok kəndlərində əkin sahələri xeyli genişləndirilib. Əgər əvvəllər Böyükdüz kəndində 700-800 hektar taxıl əkilirdisə, ötən ilin payızında həmin rəqəm 1200 hektardan çox olub. Bu il isə Böyükdüz kəndi yaxınlığında 400 hektar ərazini əhatə edən daha bir qapalı suvarma şəbəkəsinin tikintisi aparılır. Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, bu il Böyükdüzdə 1323 hektar ərazidə taxıl biçini həyata keçirilib. Hektarın məhsuldarlığı 28 sentner təşkil edib, ümumi məhsul 3704 ton olub. Bununla yanaşı, kəndin torpaq mülkiyyətçiləri tərəfindən 68 hektar sahədə tərəvəz, 29 hektarda bostan, 171 hektarda qarğıdalı, 21 hektarda kartof, 7 hektarda isə dənli-paxlalı bitkilər əkilib. Hazırda sahələrdən məhsul tədarükü davam edir.

Böyükdüzü rayonun digər kəndlərindən fərqləndirən amillərdən biri də burada xırdabuynuzlu heyvan təsərrüfatlarının çox olmasıdır. Hələ Sovetlər Birliyi dövründən bu kəndin sakinləri heyvandarlığın inkişafına böyük maraq göstəriblər. Hazırda kənddəki fərdi təsərrüfatlarda 630 baş iribuynuzlu mal-qara ilə yanaşı, 13 min 200 başadək xırdabuynuzlu heyvan saxlanılır. Heyvandarlıqla məşğul olan kənd sakinlərindən Qəhrəman və Çingiz Kərimovların, Nadir Məmmədovun, Tofiq Quliyevin, Musa Tamoyevin və digərlərinin hər birinin təsərrüfatında 200-dən çox xırdabuynuzlu heyvan var. Heyvandarlıqla məşğul olan Mahir İsmayılov bizimlə söhbətində bildirdi ki, 20 ildən çoxdur, heyvandarlıqla məşğul olur. Kəndin geniş ərazilərə malik olması, heyvandarlığın inkişafı üçün əlverişliliyi kənd sakinlərinin bir çoxunda xırdabuynuzlu heyvan təsərrüfatına marağı artırıb. Digər təsərrüfat sahibi Nadir Məmmədov isə qeyd etdi ki, indi kəndliyə göstərilən dövlət qayğısı istər heyvandarlıq, istərsə də əkinçilik təsərrüfatını genişləndirməyə imkan verir. Müsahibimiz dedi ki, kənddə heyvandarlıq təsərrüfatlarının ildən-ilə genişlənməsi daxili bazarın yerli heyvandarlıq məhsulları ilə təminatına öz töhfəsini verir. Bunun nəticəsidir ki, indi kənddə süd məhsullarını qəbul edən müəssisə də fəaliyyət göstərir. Təsərrüfat sahibləri əldə etdikləri südü buradakı müəssisəyə satmaqla öz dolanışıqlarını təmin edirlər. Öyrəndik ki, kənddə, əsasən, pendir istehsalı üzrə ixtisaslaşmış müəssisə sahibkar Vaqif Babayevə məxsusdur. O bizimlə söhbətində məlumat verdi ki, yaratdığı müəssisə 7 ildən çoxdur, fəaliyyət göstərir. Əsas işləri kənddəki fermerlərdən süd məhsullarını qəbul edib, onlardan müxtəlif ağartı məhsulları hazırlamaqdır. Daha çox isə pendir istehsalı əsas götürülür. Mövsümlə əlaqədar burada 4 nəfər işlə də təmin olunur.

Böyükdüz kənd bələdiyyəsinin sədri İbrahim Quliyev bildirdi ki, son illərdə Kəngərli rayonunda müxtəlif sahibkarlıq subyektlərinin yaradılması sakinlərin məşğulluğunu təmin edib. Belə ki, "Naxçıvan Bağları" məhsullarını istehsal edən istixana kompleksində, "Naxçıvan Sənaye Kompleksi"ndə daimi işlə təmin olunmuş xeyli kənd sakini var.

Bəli, bu gün Böyükdüz kəndi özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu kənddə, eləcə də kəndətrafı ərazilərdə indiyədək mühüm problemlərdən biri torpaqların şoranlaşması, suvarma suyuna olan ehtiyac olub. Ancaq son illərdə istər suvarma suyuna olan tələbatın ödənilməsində, istərsə də bu ərazidəki torpaqların münbitləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər problemin həllində mühüm rol oynayıb. İnanırıq ki, bu sahədə görülən işlərin davamlılığı yaxın gələcəkdə Böyükdüzün iqtisadi potensialını daha da artıracaq.

***P.S. Böyükdüz kəndi haqqında bu yazını hazırlayarkən mənbələrdə belə bir məlumatla rastlaşdım ki, 1949-cu ildə bu kənddən beş nəfər "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülüb. SSRİ dövründə belə yüksək ada bir çoxları layiq görülsə də, bir kənddən beş nəfərin eyni ildə bu adla təltif olunması nadir hadisədir. Bu fakt onun göstəricidir ki, Böyükdüz həm də belə zəhmətkeş insanların qurub-yaratdığı böyük kənddir.***

**Səbuhi HƏSƏNOV**

## *"Naxçıvan Aqrolizinq"* Açıq Səhmdar Cəmiyyəti aqrar sahənin inkişafında önəmli paya malikdir



***Aqrar sahənin inkişafı və ərzaq məhsulları istehsalının artırılması üçün yeni texnologiyaların və müasir texnikanın cəlb edilməsi həlledici əhəmiyyət kəsb edir. Lakin müasir kənd təsərrüfatı texnikalarının alınması böyük vəsait tələb edir. Bu isə dövlətin dəstəyi olmadan mümkün deyil. Ona görə də muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fermerlərə hərtərəfli dövlət qayğısı göstərilir. Nəticədə, son illər kənd təsərrüfatı məhsullarının həcmi xeyli artıb.***

Bu sahədə ən mühüm addım isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatının inkişafının stimullaşdırılması məqsədilə imzaladığı 2014-cü il 16 aprel tarixli Fərmanı olub. Fərmana əsasən kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilməsi, eləcə də mineral gübrələrin 70 faiz güzəştlə satışının həyata keçirilməsi qərara alınıb. Bu tədbirlər yerlərdə aqrolizinq xidmətləri tərəfindən həyata keçirilir.

"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti 2005-ci ilin yanvar ayından fəaliyyət göstərir. Ötən dövrdə cəmiyyətin muxtar respublikanın rayonlarında bazaları yaradılaraq lazımi texnika və avadanlıqlarla təchiz olunub, kollektiv üzərinə düşən vəzifələri yerinə yetirib.

Cəmiyyət bu gün muxtar respublikada kənd təsərrüfatının inkişafında mühüm rol oynayır. Qurumun əsas vəzifəsi regionda kənd təsərrüfatı texnikası çatışmazlığının aradan qaldırılmasını, fermerlərə güzəştli şərtlərlə texnika və avadanlıqların lizinq yolu ilə verilməsini, habelə mineral gübrələrin, damazlıq mal-qaranın, məhsuldar toxum sortlarının alınaraq uyğun qiymətlərlə sahibkarlara satışını təşkil etməkdən ibarətdir. Ötən müddətdə bu sahədə mühüm irəliləyişlərə nail olunub, fermerlər göstərilən dövlət qayğısından yararlana biliblər. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin ötən 12 il ərzindəki fəaliyyətinə nəzər salsaq, görərik ki, əgər 2006-cı ildə muxtar respublikaya 82 ədəd kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlar gətirilmişdisə, 2017-ci ildə gətirilən texnikaların sayı 227 ədəd təşkil edib. Hər il onların sayı artırılaraq, ümumilikdə, 1978 ədədə çatdırılıb. Bu texnika və texnoloji avadanlıqların ardıcıl olaraq hər il fermerlərə güzəştli şərtlərlə satışı təşkil olunub, onlardan 1563 ədədi lizinq, 115 ədədi isə nağd və köçürmə yolu ilə hüquqi və fiziki şəxslərə satılıb.

Ötən dövrdə cəmiyyətin rayon bazaları da yaradılıb və bu bazalar üçün inzibati binalar, anbar, texniki park və təmir sexləri tikilib istifadəyə verilib, maddi-texniki baza gücləndirilib, gətirilən texnika və texnoloji avadanlıqların əkin sahələrinə uyğun bölgüsü aparılıb. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətindən verilən məlumata görə, indiyədək gətirilən kənd təsərrüfatı texnikaları və texnoloji avadanlıqlardan 24 ədədi Şərur, 34 ədədi Babək, 21 ədədi Culfa, 12 ədədi Kəngərli, 7 ədədi Sədərək, 6 ədədi Ordubad, 12 ədədi Şahbuz bazalarına göndərilib. Beləliklə, ümumilikdə, rayon bazaları 116 ədəd texnika və texnoloji avadanlıqlarla təchiz olunub. Qeyd edək ki, lizinq yolu ilə satılan texnikaların ehtiyat hissələrinin alınması da cəmiyyət tərəfindən diqqət mərkəzində saxlanılır. Hazırda anbarlarda müxtəlif kənd təsərrüfatı texnikalarının ehtiyat hissələri vardır. Məhz torpaq mülkiyyətçilərinin əlindən tutan bu cür müasir texnika və avadanlıqlar əkin sahələrində mütərəqqi aqrotexniki qaydaları tətbiqinə imkan verir.

Torpaq mülkiyyətçilərinə mühüm dəstəklərdən biri də əkin sahələrinin mineral gübrələrə olan ehtiyacının ödənilməsidir. Artıq ötən ildən başlayaraq dövlət başçısının fərmanı ilə mineral gübrələrin fermerlərə 70 faiz güzəştlə satışı təmin olunub. Muxtar respublikada da əkinçiliklə məşğul olan torpaq mülkiyyətçiləri bu imkanlardan lazımınca yararlana bilirlər.

Bu ilin ötən dövrünədək "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin gübrə anbarlarına 4 min tona yaxın azot gübrəsi tədarük olunub. Yaradılan şərait muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsinə, meliorativ tədbirlərin həcminin genişləndirilməsinə, yeni fermer təsərrüfatlarının və kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin yaradılmasına imkan verir.

Muxtar respublikada heyvandarlığın inkişaf etdirilməsi yönündə atılan addımlar heyvandarlıq məhsullarının ildən-ilə artırılmasına şərait yaradır. Xüsusilə xarici ölkələrdən cins mal-qaranın alınıb gətirilərək güzəştli şərtlərlə sahibkarlara satılması bu sahənin inkişaf etdirilməsini stimullaşdırır. Məlumat üçün deyək ki, cəmiyyət tərəfindən bu günə qədər muxtar respublikaya 1927 baş damazlıq cins mal-qara gətirilib və fermerlərə uyğun şərtlərlə satılıb. Həyata keçirilən bu tədbirlər iribuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayıb ki, bu da ət və süd istehsalının ilbəil artmasına öz təsirini göstərib.

Əhalinin əksəriyyətinin kəndlərdə yaşadığı Naxçıvan Muxtar Respublikası zəngin kənd təsərrüfatı ənənələrinə malikdir. Bu ənənələri uğurla və mütərəqqi vasitələrlə davam etdirmək üçün bu gün münbit şərait mövcuddur. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin fermerlərə dəstəyi isə aqrar sahədə mühüm nəticələr əldə etməyə imkan verib. Yaradılan imkanlar kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırıb və əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmasına şərait yaradıb.

**Nail ƏSGƏROV**



Müasir səhiyyə ocaqlarımız

# Tibbi xidmətin səviyyəsi yüksəldilir

***Bu gün Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi dövlət qarşısında duran ən mühüm vəzifələrdəndir. Aparılan genişmiqyaslı islahatlar çərçivəsində səhiyyə ocaqları üçün yeni binalar tikilir, mövcud binalar yenidən qurularaq ən müasir tibbi avadanlıqlarla təchiz olunur. Şərur Rayon Mərkəzi Xəstəxanası da belə səhiyyə müəssisələri sırasındadır. Xəstəxananın həyətində hara baxırsan, təmizlik, gül-çiçək, yaşıllıq görürsən. Bu da insanda təbii olaraq xoş əhval-ruhiyyə yaradır.***

Xəstəxananın baş həkimi Adəm İmanovla birlikdə səhiyyə ocağını gəzirik. Həkimlərin ixtiyarında müasir tibb avadanlıqlarının olmasına şahidlik edirik. Adəm həkim bildirir ki, 2017-ci il mart ayının 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur Rayon Mərkəzi Xəstəxanasında aparılan təmir işləri ilə maraqlanmış, quraşdırılan yeni tibbi avadanlıqlara baxmışdır. Əsaslı təmir işləri aparılmış binada rentgen-flüoroqrafiya, kompüter-tomoqrafiya və elektroensofaloqramma aparatları quraşdırılmışdır. Bu tibbi avadanlıqlar müayinə və müalicə işlərinin yüksək səviyyədə təşkilinə imkan verir. Bununla da, rayon sakinlərinin başqa yerlərə üz tutmasına ehtiyac qalmır.

Baş həkim onu da qeyd edir ki, səhiyyə ocağında 37 həkim, 327 orta tibb işçisi çalışır. Şərur Rayon Mərkəzi Xəstəxanası Təcili Yardım, Travmatologiya, Terapiya, Uşaq xəstəlikləri, Nevrologiya, Poliklinika, Laboratoriya, Cərrahiyyə, Reanimasiya, Ginekologiya, Yoluxucu xəstəliklər, Rentgen şöbələri, Kardiologiya, Hemodializ bölmələri, 2 USM, Qanköçürmə kabinələri, Aşağı Aralıq kənd sahə xəstəxanası, 27 həkim-ambulatoriyası, 33 feldşer-mama məntəqəsi var. Səhiyyə ocağı rayonun 113 min 125 sakininə, o cümlədən 19 min 21 uşağa tibbi xidmət göstərir.

Baş həkim onu da qeyd edir ki, xəstələrə təxirəsalınmaz ambulator və stasionar yardım göstərmək üçün mərkəzdə Təcili yardım şöbəsində 4 briqada yaradılıb. Son 8 ay ərzində briqadalar 946 çağırışda olub, 1659 xəstəyə şöbədə yardım göstərilib. Burada xəstələrin qəbulu, kiçik cərrahi müdaxilələrin aparılması, diaqnozları dəqiqləşdirilənə qədər palatalarda yerləşdirilməsi işi ilə məşğul olunur, onlara təxirəsalınmaz tibbi yardım göstərilir.

Xəstəxanada qan ehtiyatı da diqqətdə saxlanılır. Belə ki, fəal donorların sayı 10 nəfər, ehtiyatda olan donorların sayı 5 nəfər olub.

Dispanser xəstələr müntəzəm olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Şərur Rayon Mərkəzi Xəstəxanasının ixtisaslı həkimlərindən ibarət briqada tərəfindən yoxlanılır, laborator, USM və EKQ müayinəsindən keçirlər. Şəkərli diabet xəstələrinə qanda şəkərin miqdarını təyin etmək üçün qlükometr aparatı verilib və bu aparatlar müntəzəm olaraq strip-testlərlə təmin olunur.

Ginekologiya şöbəsində həkim-neantoloq Hidayət Camalovla həmsöhbət oluruq. O qeyd edir ki, bəhs olunan dövrdə rayonda 602 uşaq dünyaya gəlib, uşaqlarda hər hansı patologiya müşahidə olunmayıb. Hidayət həkim onu da bildirir ki, bu gün xəstəxanada körpələrin sağlamlığı üçün nə lazımdırsa, edilir. Epidemioloji sabitlik qorunur. Bunun nəticəsidir ki, körpələr arasında yoluxucu xəstəliklər qeydə alınmayıb. Uşaq və yeniyetmələrin sağlamlığı barədə məlumatların vətəndaşların elektron sağlamlıq kartı sisteminə daxil edilməsi istiqamətində lazımi işlər görülür. Belə ki, rayonda yeni doğulmuş uşaqlar haqqında müvafiq məlumatlar internet vasitəsilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə ötürülür və elektron sağlamlıq kartlarının verilməsi işi sistemli şəkildə davam etdirilir.

Cərrahiyyə şöbəsində növbəti əməliyyatı uğurla yerinə yetirib, xəstənin yaxınlarına əməliyyatın necə keçdiyi haqda məlumat verən gənc həkim-cərrah Nurlan Cəfərovla qarşılaşırıq. O bildirir ki, cari ilin ötən dövrü ərzində 212 cərrahi əməliyyat aparılıb. Əməliyyatların hamısı uğurla başa çatdırılıb. Həkim onu da qeyd edir ki, 2017-ci il yanvar ayının 13-də Şərur rayonunda növbəti humanitar aksiya keçirilib. Bakı şəhərində fəaliyyət göstərən Akademik Mirəsədulla Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti aztəminatlı ailələrdən cərrahi müdaxiləyə ehtiyacı olan 20 nəfər üzərində ümumi cərrahi, proktoloji, uroloji və digər əməliyyatlar aparıb. Xəstəxananın tibbi heyəti də Bakıdan gələn həkimlərlə birgə əhaliyə səhiyyə xidməti göstərib. Aksiya zamanı pasiyentlər, həmçinin hemotoloji, uroloji, nefroloji, proktoloji, oftalmoloji və digər tibbi xidmətlərlə də əhatə olunublar.

2017-ci ilin 8 ayı ərzində dispanser qeydiyyatında olan 5 Böyük Vətən müharibəsi əlili və iştirakçısı, 57 Əfqanıstan müharibəsi veteranı, 55 Çernobıl qəzasının, 56 Azərbaycan Vətən müharibəsinin iştirakçıları və 48 şəhidin ailə üzvləri müntəzəm olaraq müayinələrdən keçirilir. Xəstəxanada yaradılmış 4 həkim briqadası kənd tibb müəssisələrində əhalini vaxtaşırı tibbi müayinə edir və maarifləndirmə işi aparırlar.

Fəsil dəyişkənliyi ilə əlaqədar payız mövsümündə məktəblərdə şagirdlər arasında müayinə işlərinə başlanılıb. Müayinələr zamanı hər hansı bir xəstəlik müşahidə edildikdə, uşaqlar müvafiq müalicə müəssisələrinə cəlb olunurlar.

Hemodializ bölməsində böyrək çatışmazlığından əziyyət çəkən xəstələrə xidmət göstərilir. Hazırda bu bölmədə 9 xəstə qeydiyyatdadır. 8 ildir ki, bu xəstəlikdən əziyyət çəkən rayonun Kürkənd kənd sakini Samilə İsmailzadə həftədə 3 dəfə olmaqla, 4 saatlıq proqramlı hemodializ seansı keçdiyini deyir və göstərilən xidmətin tam təmənnasız, dövlət hesabına olduğunu qeyd edir. O, göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirir.

Xəstəxanada olarkən 85 yaşlı İbrahim Qasımov yeni xəstəxana istifadəyə veriləndən buraya səhhəti ilə bağlı tez-tez müraciət etdiyini dedi. Bildirdi ki, on gündən bir bura gəlib yoxlamadan keçir, həkim və tibb işçilərindən razıdır.

Xəstəxananın müasir tələblərə cavab verən laboratoriyasında biokimyəvi və yoluxucu xəstəliklərin müayinəsini aparmaq üçün tibbi avadanlıqlar var. Əgər əvvəllər rayon əhalisi belə müayinələr üçün Naxçıvan şəhərinə yollanırdısa, artıq buna ehtiyac qalmayıb.

*İnanırıq ki, Şərur Rayon Mərkəzi Xəstəxanasının peşəkar həkimləri və tibbi personalı bundan sonra da yerli sakinlərin sağlamlığının keşiyində dayanacaq, bu müqəddəs vəzifəni şərəflə yerinə yetirəcəklər.*

✍ **Ramiyyə ƏKBƏROVA**

# “Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik” başlığı altında internet aksiya keçirilib

Muxtar respublikamızda turizmin bir çox növlərinin inkişafı üçün geniş imkanlar mövcuddur. Son illərdə əldə olunmuş sürətli sosial-iqtisadi tərəqqi bu sahənin hərtərəfli inkişafına yeni imkanlar açıb. Turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması istiqamətində həyata keçirilən davamlı tədbirlər öz real nəticələrini verməkdədir. Əsas məqsəd turizmin muxtar respublikamızda dayanıqlı, effektiv və rəqabətədavamlı sahəyə çevrilməsinə nail olmaqdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu ilin 8 ayında muxtar respublikamıza 243 mindən çox turist gəlib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur.

Muxtar respublikanın təbii gözəlliklərini, ecazkar təbiətini, turizm imkanlarını nümayiş etdirmək və təbliğ etmək baxımından internet aksiyaların və sosial şəbəkələrin resurslarından istifadənin mühüm əhəmiyyəti vardır.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Naxçıvan Turizm İnformasiya Mərkəzinin 27 sentyabr – Ümumdünya Turizm Günü münasibətilə “Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik” başlığı altında keçirdiyi internet aksiyada bu barədə geniş məlumat verilib. Aksiyada istifadə etmək üçün 10 bölmə üzrə 1000-ə yaxın foto və 150-dən çox videoçarx hazırlanıb.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində “Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik” başlıqlı bölmə yaradılıb, hazırlanmış materiallar burada yerləşdirilib.

Bu materiallar ölkəmizdə fəaliyyət göstərən turizm informasiya mərkəzləri, turizm firmaları və yerləşdirmə obyektlərinin saytlarına göndərilib, sosial şəbəkələrdə paylaşılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi üzrə aksiyada 500 nəfərdən çox əməkdaş və tələbə iştirak edib, 10 mindən çox paylaşım olub. Paylaşılan materiallara 90 mindən artıq baxış sayı qeydə alınıb.

Aksiya zamanı Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytında 76 minə yaxın izlənmə olub, saytdan 158 müxtəlif sayta foto və video-materiallar göndərilib, mərkəzin sosial şəbəkələrdəki səhifələrində 2500 paylaşım edilib.

Ümumilikdə, aksiyada 550 nəfər fərdi və 1 qrup iştirak edib. Qrup üzvlərinin sayı 13 min nəfərə yaxındır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Naxçıvanın qədim və ən yeni tarixi haqqında məlumatlar xarici jurnalistin təqdimatında

***Qədim mədəniyyət beşiyi olan Naxçıvanın tarixi abidələri dünyada böyük maraq doğurmaqdadır. Amerikalı jurnalist Peter Tasenin ingilis dilində çapdan çıxmış “Azərbaycanın Naxçıvanının qədim abidələri və sərvətləri” kitabında da ölkəmizin bu qədim diyarının tarix və mədəniyyət abidələri haqqında geniş və maraqlı məlumatlar öz əksini tapmışdır.***




ABŞ-ın Milvuake ştatının “Lulu Enterprises” nəşriyyatında nəfis şəkildə çap olunmuş kitab 38 paraqraf və 208 səhifədən ibarətdir. Kitabın redaktoru Bosniya və Hersoqovinadan olan alim və jurnalist Sabhudin Hadzialiçin ön söz yazdığı kitab Azərbaycanın Naxçıvan Muxtar Respublikası haqqında qısa məlumatla başlayır. Burada Naxçıvanın müasir inkişaf səviyyəsi, tarix və mədəniyyət abidələri haqqında fikirlərə yer verilərək Naxçıvan Muxtar Respublikasının 5,5 min kvadratkilometrlik ərazisində 1200-dən artıq tarixi-mədəni və arxeoloji abidənin qeydə alındığı, onlardan 58-nin dünya əhəmiyyətli olduğu bildirilir. Bu bölümdə, həmçinin Naxçıvanın təcavüzkar Ermənistan tərəfindən 26 ildən artıq davam edən blokadasının yaratdığı çətinliklərə baxmayaraq, iqtisadi-sosial və mədəni sahədə qət etdiyi inkişafdan, tikilmiş 250-dən artıq modern təhsil obyektindən və aparılmış islahatlardan bəhs olunur. Kitabda Naxçıvanın Azərbaycan tarixində tutduğu yer, xüsusilə onun XII əsrdə Atabəylər hakimiyyəti dövründə paytaxt şəhər olmasının əhəmiyyəti vurğulanır. Həmçinin bəhs olunan tarixi abidələrin Naxçıvana səyahət edənlərin diqqətini cəlb etdiyi bildirilir.

Kitabın “Naxçıvan: qısa məlumat” adlı ilk bölməsində Azərbaycanın bu qədim diyarının adının Dünya tufanı və Nuh Peyğəmbərin adı ilə bağlı olması, habelə muxtar respublikanın əhalisi, hökumət quruluşu, Konstitusiyası və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən regionun sosial-iqtisadi, mədəni inkişafı istiqamətində görülmüş işlərdən və xarici-iqtisadi əlaqələrin yaradılmasından bəhs olunur. Naxçıvandakı Möminə xatın türbəsi, Qarabağlar Türbə Kompleksi, Yusif Küseyir oğlu türbəsi, Xan sarayı, Buzxana, Xanəgah Kompleksi, Əlincəqala, Gülüstan türbəsi kimi tarixi abidələrin bərpası, həmçinin Cəmşid Naxçıvanski, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Yusif Məmmədəliyev, Bəhruz Kəngərli, Məhəmməd Tağı Sidqi kimi görkəmli şəxsiyyətlərin adının əbədiləşdirilməsi istiqamətində görülmüş işlərdən danışılır. Bu sahədə 1996-cı ildə keçirilmiş “Naxçıvan beynəlxalq qaynaqlarda” Beynəlxalq simpoziumun əhəmiyyəti xüsusilə qeyd olunur.

Daha sonrakı bölmələrdə Avrasiyanın mərkəzindəki qədim şəhər kimi Ordubadın tarixi əhəmiyyətinə toxunan jurnalist Peter Tase buradakı muzeylərdən, XVII əsrə aid Qeysəriyyə binasından, qədim su sistemlərindən, tarixi səyyahların buraya səfərlərinin təəssüratlarından və Ordubad ipəyinin keçmişdəki şöhrətindən yazır.

Naxçıvanın möhtəşəm tarixi abidələrindən bəhs edən müəllif bu regionu Azərbaycanın və bütün dünya tarixinin canlı şahidi adlandırır. Bu barədə kitabda Əcəmi memarlıq məktəbi, onun davamçıları olan Əmirəddin Məsud Naxçıvanidən danışan araşdırmaçı Naxçıvanın memarlıq abidələrindən Fərhad evinin təsvirinə də xüsusi yer verib. Naxçıvanın memarlıq xəzinəsi kimi muxtar respublika ərazisində müxtəlif yerlərdə rast gələnən eradan əvvəl II və I minilliklərə dair nekropolları, həmçinin Göynük qalası, Ordubaddakı Gəmiqaya, qədim Gənzə hamamı və Aza körpüsü, Gülüstan türbəsi, Sədərək rayonundakı Əjdəhan mağarası, Şahbuz rayonu ərazisindəki Gəlinqaya, Şərur rayonunun Havuş kəndindəki Tamaşalı yaşayış məskəni, müqəddəs Əshabi-Kəhf ziyarətgahı, böyük coğrafiyaçı-alim və səyyah Ptolomeyin əsərlərində adını çəkdiyi tarixi Narınqala şəhərinin əhəmiyyətinə xüsusilə yer ayrılıb.

Naxçıvanın tarixi abidələri arasında, heç şübhəsiz, Möminə xatın türbəsinin xüsusi yeri vardır. Bu barədəki bölmədə müəllif Azərbaycanın həmin görkəmli abidəsini dünya memarlıq irsinin gizli xəzinəsi adlandırır. O qeyd edir ki, 1186-cı ildə tikilmiş Şərq memarlıq məktəbinin bu incisi Azərbaycanın milli memarlığını digərlərindən fərqləndirən əsas sərvətlərdən biridir. Belə ki, indiyə qədər Möminə xatın türbəsinə xas olan sənətkarlıq elementlərini özündə əks etdirən ikinci bir memarlıq abidəsi tikilməyib.

Naxçıvan qədim müdafiətipli qalaları ilə məşhurdur. Tarixi eramızın I əsrinədək gedib çatan və XIV əsrin sonu, XV əsrin əvvəllərində Teymurilərin hakimiyyəti dövründə özünün qəhrəman müdafiəçiləri ilə tanınan Əlincəqala haqqında kitabda geniş bəhs olunur. Qalanın tarixi, burada tapılmış qədim maddi-mədəniyyət nümunələri, Azərbaycan xalqının tarixi keçmişi və mübarizəsi haqqında müfəssəl məlumatlar ingilisdilli oxuculara çatdırılır.

Azərbaycan tarixinin mühüm mərkəzlərindən biri olan Naxçıvan, eyni zamanda muzeylər şəhəridir. Buradakı muzeylərdən Heydər Əliyev Muzeyi, Xalça Muzeyi və Zaviyə mədrəsəsi haqqında “Naxçıvan: Azərbaycan tarixinin beşiyi” adlı başlıqda geniş məlumat verən müəllif həmin mədəniyyət müəssisələrindəki qiymətli eksponatlarla tanış olan on minlərlə ziyarətçinin yüksək təəssüratı qazandığından bəhs edir.

Naxçıvan qədim tarixi keçmişə və zəngin memarlıq ənənələrinə malik olmaqla yanaşı, həm də görkəmli tarixi şəxsiyyətlərin ana vətənidir. Kitabda bu məqama diqqətçəkən Peter Tase Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev, Azərbaycan Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov haqqında “Azərbaycanın Naxçıvandan olan görkəmli tarixi və müasir şəxsiyyətləri” bölməsində xüsusi yer ayırıb. Bu bölmədə Azərbaycanın ən yeni tarixində dərin izlər qoymuş və müstəqillik illərində hərtərəfli inkişafını təmin etmiş ümummilli lider və davamçılarının bioqrafiyası və siyasi fəaliyyəti haqqında geniş məlumat verilib. Həmin səhifələrdə Azərbaycanın tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının da müasir inkişafı, eləcə də tarixi abidələrin bərpası istiqamətində görülmüş işlər barədə oxucuda dərin təsəvvür yaradılır.

Qeyd edək ki, beynəlxalq İSBN kodu ilə nəşr olunmuş kitabın elektron variantı ilə internetdə də tanış olmaq mümkündür.

✍ **Əli CABBAROV**

## Xeyirxahlığın və xalqa xidmət etməyin bəhrəsi – *Kalba Musa çeşməsi*

***Naxçıvan şəhərində onlarla bulaq və çeşmə var. Hər birinin də öz tarixçəsi, öz adı mövcuddur. Bəzən böyük məhəllələri belə, orada çağlayan bulaqların, çeşmələrin adı ilə adlandırıblar. Belə məkanlar əhalinin içməli və suvarma suyuna olan tələbatını ödəməklə yanaşı, həm də insanların toplaşdığı, hansısa bir məsələni müzakirə etdiyi yerlər olub. Əgər diqqət etsəniz, görərsiniz ki, Naxçıvanın bütün bölgələrində kəhrizlərin elə lap yaxınlığında məscidlər və meydanlar yerləşir.***



Qədim dövrlərdən kəhrizlər insanların karına gəlib, kankanlar uzaq məsafələrdən suyu gətirmək üçün böyük zəhmət çəkərək kəhrizlər yaradıb, bu yolla yaşayış məntəqələrinin suya olan tələbatını ödəyə biliblər.

Bu gün Naxçıvanda bol su sərfiyyatı ilə tanınan kəhrizlər çoxdur. Təkcə Naxçıvan şəhərində 30-dan çox kəhrizin mövcudluğu yazılı və şifahi mənbələrdən bizə məlumdur. Lülə, Xan, Ağamalı, Kiçik çeşmə, Kazım Qarabəkir, Mirzə Bədəl, Çuxur və sair kəhrizlər Naxçıvan və ətraf ərazilərdə yaşayan insanların istifadə etdikləri su mənbələridir. Həmin sərvətlərdən bu gün də yararlanırlar. Dünyanın bir sıra yerlərində içməli su qıtlığı olduğu halda, qorunub saxlanan su abidələrimiz bizə bu problemi yaşatmır.

Şəhərdəki Kalba Musa kəhrizi öz tarixi və iqtisadi əhəmiyyətinə görə başqalarından fərqlənir. Mənbələrə nəzər saldıqda məlum olur ki, dövrünün tanınmış insanı, xalq arasında böyük hörmət qazanan Kalba Musa adlı şəxs Naxçıvan əhalisini içməli su ilə təmin etmək üçün var-dövlətini sərf edərək uzaq məsafədən yeraltı tunellər qazdıraraq 1901-1909-cu illərdə bir kəhriz çəkdirib.

Bəs bu fikir necə meydana gəldi? Ümumiyyətlə, necə oldu ki, Kalba Musa kəhrizi yarandı?

Şəhər sakinlərindən Kalba Musa adlı bir şəxs kiçik torpaqları icarəyə götürüb pambıqçılıqla məşğul olur. Çox keçmir ki, o, bu işdən xeyli qazanc əldə edir. Kifayət qədər sərmayə toplayan Kalba Musa su sarıdan xeyli əziyyət çəkir. Uzun axtarışlardan sonra qərara gəlir ki, Şıxmahmud kəndinin yaxınlığında yerləşən su mənbəyindən istifadə etsin. O, belə də edir. Kalba Musa Naxçıvan şəhərindən 3 kilometr yuxarıda, Şıxmahmud kəndinin yanında, Naxçıvançayın sağ yatağında quyular qazdırıb şəhərin əsaslı su təminatını yaratmaq üçün ən təcrübəli, bacarıqlı kankanları ətrafına toplayır. Belə qənaətə gəlir ki, burada azı 130-140 quyu qazılmalıdır. Dərinliyi 30-35 metrə çatacaq bu quyuları yeraltı lağım atıb onları bənd eləməklə şirin suyu öz axarı ilə şəhərə gətirmək lazımdır. Bu işdə ən çətin məsələ o dövrdə lazımi alət və texniki vasitələr olmadan bir-birindən 60-80 metr aralı quyuların yeraltı xətlərlə birləşdirilməsi idi. Böyük zəhmət, alın təri tələb edən bu iş 8 il davam edir və bu müddətdə 135-dək quyu qazılır, lağım vasitəsilə birləşdirilir. Əsas çətinlik 35 metr dərinlikdəki axırıncı quyunun qazılmasında olur. Həmin quyuda sərt sal qayalara rast gəlinir. Lakin Kalba Musanın iradə və inadı sərt qayalara da qalib gəlir. Belə ki, sonuncu quyu 35 metr dərinliyə çatanda ən təcrübəli kankan quyudan çıxıb deyir: – Kalba Musa, özün düş quyuya qulaq ver, gör sal qayaların altında dəhşətli, vahiməli, dəniz uğultusu necə gəlir. Hər an fəlakət baş verə bilər. Kalba Musa özü quyuya düşür. Qulaq verib görür ki, elə bil, daş altında bir dərya təlatümə gəlib uğuldayır. O, quyudan çıxır, kankanlara təsəlli verir. "Allaha təvəkkül", – deyib işə fasilə vermək qərarına gəlir. Heç üç gün keçməmiş bir gecə Naxçıvan şəhərini vahimə basır. Sən demə, sonuncu quyunun qazıla-qazıla nazikləşmiş sal qaya qatı yer altında zəngin yatağı olan suyun zərbəsinə tab gətirə bilmir, partlayaraq 35 metrlik quyudan fəvvarə verib gecəynən küçələri, ətrafdakı əkin sahələrini cənginə alır. Bir həftədən sonra quyunun gur suyu sakitləşir. Göz yaşı kimi dupduru, yayda buz kimi, qışda ılıq suyu olan bu kəhriz həmin vaxtdan Kalba Musa çeşməsi adlanır.

İnşası 8 ilə başa gələn bu məşhur kəhriz ətrafında yerləşən əkin sahələrinin suvarılmasında, eləcə də əhalinin içməli suya olan tələbatının ödənilməsində mənbə rolunu oynayıb. Sovetlər dövründə bütün qədim abidələrimiz kimi, Kalba Musa kəhrizindən şəhərimizin bağlarının suvarılmasında, eləcə də uzaq yaşayış massivlərinə su daşınmasında istifadə edilib. Ancaq bütün bunlara baxmayaraq, kəhrizə o qədər də diqqət edilməyib, elə bunun da nəticəsində su sərfiyyatı azalıb.

Ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra bütün sahələr kimi, dəyərli sərvətlərimiz sayılan kəhrizlərə də diqqət artırıldı. Kalba Musa abidəsi də təmir olunaraq əvvəlki görkəminə qaytarıldı. Belə ki, 2006-cı ilin avqustunda Kalba Musa kəhrizinin bərpası məqsədilə çeşmə Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabeliyindəki Kəhrizlər İdarəsinə həvalə edildi. Uzunluğu 2388 metr olan kəhrizin 830 metrlik hissəsi qatılaşmış lildən təmizləndi. Beləliklə, uçub-sökülmüş kəhriz quyuları bərpa olundu. Ötən müddət ərzində kəhrizin axarı üzərində 14 yeni baxış quyusu qazılıb, 13 quyuda isə təmir işləri görülüb. Torpaq uçqunu ehtimalı böyük olan 7 quyuda dəmir-beton bərkitmə işləri aparılıb. Gələcəkdə uçqunların dağıdıcı təsirini azaltmaq məqsədilə saybənd-tağ şəklində hörgü sistemindən istifadə edilib. Bir sözlə, təmir-bərpa işlərindən sonra çeşmənin su sərfi də xeyli artıb.

Xeyriyyəçilik, insanpərvərlik kimi nəcib xüsusiyyətlərlə yaddaqalan Kalba Musanın öz xalqına, torpağına miras qoyub getdiyi kəhriz – Kalba Musa çeşməsi bu gün dövlətin qayğısı nəticəsində bərpa olunaraq qurumuş torpaqlara yeni həyat, insanlara sevinc, evlərə bərəkət bəxş edir.

✍ **Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi dövlət vergi orqanlarına işə qəbul olmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu 2.10.2017-ci il tarixdən 1.11.2017-ci il tarixədək aparılır. Müsabiqədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri nazirlikdə yaradılmış komissiyaya təqdim etməlidirlər:

*1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir)*

*2. 3x4 santimetr ölçüdə 2 ədəd (ağ fonda) fotoşəkil*

*3. Ali təhsil barədə diplom (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanunamüvafiq qaydada notarifikasiya olunmalıdır)*

*4. Əmək kitabçasının əsli və ya təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə)*

*5. Şəxsiyyət vəsiqəsi*

*6. Hərbi bilet.*

Sənəd qəbulu zamanı məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırışyaşlı vətəndaşlar dövlət vergi orqanlarında xüsusi rütbələr nəzərdə tutulmuş vəzifələrə xidmətə qəbul edilmirlər.

Bir qayda olaraq yaşı 35-i keçməmiş və hüquqşünaslıq, beynəlxalq hüquq, maliyyə, iqtisadiyyat, statistika, beynəlxalq iqtisadi münasibətlər, mühasibat uçotu və audit, maliyyə və kredit, iqtisadiyyatın tənzimlənməsi, əməyin iqtisadiyyatı və sosiologiyası, qiymət və qiymətin əmələ gəlməsi, xəzinə əməliyyatlarının uçotu, iqtisadi nəzəriyyə, vergilər və vergitutma, sığorta işinin təşkili, milli hesablar sistemi, qiymətləndirmə (sahələr üzrə), qiymətli kağızlar, istehsalat və xidmət sahələrinin iqtisadiyyatı və idarəedilməsi (sahələr üzrə), aqrar istehsalatın iqtisadiyyatı və idarəedilməsi, ticarət və istehlak kooperasiyasının iqtisadiyyatı və idarəedilməsi, gömrük işinin təşkili, iqtisadiyyatın hüquqi tənzimlənməsi, vergi işinin təşkili və idarəedilməsi, maliyyə nəzarəti və audit ixtisasları üzrə ali təhsilə malik olan vətəndaşlar müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə aşağıda göstərilən 32 sayda vakant yer üzrə iş təklif ediləcəkdir:

*1. Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi – 11 yer*
*2. Naxçıvan Şəhər Vergilər İdarəsi – 1 yer*
*3. Babək Rayon Vergilər Şöbəsi – 2 yer*
*4. Şərur Rayon Vergilər Şöbəsi – 2 yer*
*5. Ordubad Rayon Vergilər Şöbəsi – 5 yer*
*6. Culfa Rayon Vergilər Şöbəsi – 2 yer*
*7. Şahbuz Rayon Vergilər Şöbəsi – 4 yer*
*8. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer*
*9. Kəngərli Rayon Vergilər Şöbəsi – 3 yer*

Qeyd: ***Müsabiqəni müvəffəqiyyətlə keçmiş sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv edilmədən işlə təmin olunmurlar. Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.***

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

***Əlaqə telefonu: 545-68-04***

*İdman xəbərləri*

## Naxçıvan idmançısı Avropa rekordunu yeniləyib



Kosovanın paytaxtı Priştina şəhərində 22-30 sentyabr tarixlərində 15 və 17 yaşlı yeniyetmə ağır atletlər arasında Avropa birinciliyi keçirilir. Yarışda 40-a yaxın ölkədən 305 atlet (175 oğlan və 130 qız) medallar uğrunda mübarizə aparır. Azərbaycan yığmasının 9 üzvü də birincilikdə iştirak edir.

Millimizin heyətində Kosovaya yollanan idmançılar arasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölməsinin yetirməsi Tərmenxan Babayev də var.

Artıq idmançımız mübarizəyə qoşulub və böyük uğur qazanıb. Belə ki, Tərmenxan Babayev ardıcıl olaraq 6 dəfə Avropa rekordunu yeniləyib. Yaşı 15-ə qədər olan atletlərin mübarizəsində (A qrupunda) 85 kiloqram çəki dərəcəsində kürsücük üzərinə çıxan Naxçıvan idmançısı bu uğura 291 kiloqramı qaldırmaqla nail olub.

İdmançımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim edilib.

## Daxili İşlər Nazirliyinin komandası birinciliyin mükafatçısı olub



***Azərbaycan Daxili İşlər Nazirliyinin (DİN) xidməti idman tədbirlərinin təqvim planına əsasən sentyabrın 18-dən 23-dək voleybol üzrə daxili işlər orqanlarının birinciliyi keçirilib.***

Yarışın açılış mərasimində DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya və Avropa çempionu, polis polkovniki Zemfira Meftahatdinova Azərbaycan təmsilçilərinin ən mötəbər yarışlarda əldə etdiyi qələbələr, keçirilən idman tədbirlərinin miqyası və yaradılan infrastruktura görə respublikamızın dünyada idman ölkəsi kimi tanındığını qeyd edib. Bildirilib ki, bütün bu uğurların əsasında ulu öndərin müəyyənləşdirdiyi, dövlət başçımızın uğurla davam və inkişaf etdirdiyi düzgün siyasət, sosial rifah, vətəndaşlara göstərilən diqqət və qayğı durur.

Sonra yarışlara start verilib.

DİN İdman Cəmiyyətində keçirilən bu yarışda ərazi polis orqanları, nizami hissə və tədris müəssisələrini təmsil edən, ümumilikdə, 7 komanda gücünü sınayıb.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası yarışı üçüncü pillədə başa vurub.

Qaliblərə kubok, medallar, diplomlar və hədiyyələr təqdim olunub.

## Stolüstü tennis birinciliyinə yekun vurulub



Culfa rayon Bənəniyar kənd tam orta məktəbinin idman zalında rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə yeniyetmələr arasında "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında stolüstü tennis üzrə rayon turniri keçirilib.

Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatı Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə və Təhsil Şöbəsinin əməkdaşı Səbuhi İbrahimov çıxış edərək keçirilən tədbirlərin mahiyyətindən, idmana göstərilən dövlət qayğısından və idmanın bu növünün inkişafı istiqamətində görülən işlərdən danışıblar.

Gərgin mübarizə şəraitində keçirilən görüşlərdə qalib adını Mətin İbrahimli (Bənəniyar) qazanıb. Digər iki pillədə Mətin Ələkbərli (Bənəniyar) və Əli Qulamzadə (Culfa) qərarlaşıblar.

Yekunda qalib və fərqlənən idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

## Sərrast atıcılar müəyyənləşib



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Atıcılıq Federasiyasının təşkilatçılığı ilə orta ümumtəhsil müəssisələrinin şagirdləri arasında atıcılığın tir növü üzrə keçirilən Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.*

Yarışda muxtar respublika rayonlarının hər birindən 1 komanda, şəhərdən isə 3 komanda iştirak edib. Hər komandanın tərkibində 3 oğlan və 3 qız olmaqla, ümumilikdə, 60 şagird birincilikdə mübarizə aparıb.

Yekun nəticəyə əsasən qızlardan qalib adını Firəngiz İsmayılova qazanıb (Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin şagirdi). İkinci yerə Aytac Cəfərli (Culfa şəhər 1 nömrəli tam orta məktəb), üçüncü yerə isə Nuray Gözəlova (Şərur şəhər 2 nömrəli tam orta məktəb) layiq görülüblər.

Oğlanların mübarizəsində isə ilk üç pillədə Tağı Tağıyev (Şərur şəhər 2 nömrəli tam orta məktəb), Sadiq Rəfiyev (Naxçıvan şəhər 10 nömrəli tam orta məktəb) və Ramin Hüseynli (Babək qəsəbə 1 nömrəli tam orta məktəb) qərarlaşıblar.

Qaliblərə Gənclər və İdman, Təhsil nazirliklərinin diplomları təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 774